**UOT 336.71**

# BANKLARDA TƏTBİQ EDİLƏN DAXİLİ AUDİT XİDMƏTİNİN MAHİYYƏTİ VƏ XÜSUSİYYƏTLƏRİ

**Müşfiq QURBANOV***

Məqalə redaksiyaya daxil olmuşdur: 4 noyabr 2023; çapa qəbul edilmişdir: 29 noyabr 2023; online-da çap edilmişdir: 25 dekabr 2023.
Received: 4th of November, 2023; accepted: 29th of November, 2023; published online: 25th of December, 2023.

**Açar sözlər***:* *audit, bank, daxili audit, maliyyə, hesabat*

## Giriş

Banklarda audit xidməti-bank əməliyyatlarının, risklərin idarə edilməsinin və daxili nəzarət proseslərinin effektiv, səmərəli və normativ tələblərə uyğun olmasını təmin edən mühüm funksiyadır. Audit xidmətinin əsas məqsədi bankın fəaliyyətinin müstəqil və obyektiv qiymətləndirilməsini təmin etmək, təkmilləşdirilməsi lazım olan sahələri müəyyən etmək, maliyyə hesabat larının və əməliyyat təcrübələrinin düzgünlüyünü və tamlığını qorumağa kömək etməkdir. Audit üzrə beynəlxalq standartların tələblərinə görə, audit – obyektin mənfəət əldə edib-etməməsindən, həcmindən və təşkilati formasından asılı olmayaraq, nəşr olunmuş maliyyə hesabatlarının və ya ona aid olan maliyyə informasiyalarının gələcək fikirlərin formalaşdırılması məqsədi ilə aparılan müstəqil yoxlanmasıdır [5, s. 13].

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda da auditin anlayışı verilmişdir. Belə ki, Qanunun tələblərinə əsasən audit təsərrüfat subyektlərinin mühasibat uçotunun dəqiqliyinə və dürüstlüyünə cavabdeh olmaqla yanaşı, habelə maliyyə hesabatlarının müstaqil yoxlanlmasını təmin edir [2, s. 1].

Daxili audit xidməti bankın aktivlarinin qorunmasına cavabdehlik daşıyan və bunu fasiləsiz qaydada həyata keçirən bankdaxili nəzarət mexanizmlərinin fəaliyyətinin effektivliyi və səmərəliliyini, bankın təsisçilərə və bütün pay sahiblərinə, nəzarət orqanlarına və digər maraqlı tərəflərə açıqladığı dövri hesabatların dəqiqliyi, tamlığı və dürüstlüyünü qiymətləndirir və təsdiqləyir. Daxili audit – bankın dayanıqlı, fasiləsiz və prudensial normativlərə riayət olunmaqla idarə olunmasını və fəaliyyətini təşviq edən bankdaxili nəzarət sisteminin tərkib elementidir. Əgər bankın nəzarət tədbirlərinin və əməliyyat prosedurlarının icrası zamanı hər hansı çatışmazlıq, səmərəsizlik, nöqsan, qəsdən manipulyasiya və ya saxtakarlıq hallarının baş verməsi nəticəsində dəyə biləcək potensial zərər riski minimum səviyyəyə endirilərsə, bu zaman daxili audit proqramının mükəmməl olduğunu hesab etmək olar. Səmərəli daxili audit xidməti bankın dayanıqlı və fasiləsiz fəaliyyətinə nəzarəti həyata keçirir, bank əməliyyatlarının dəqiq və etibarlı icrası ilə bağlı risklərin aradan qaldırılmasına xidmət edir.

## 1. Banklarda daxili audit xidmətinin əsas xüsusiyyətləri

Banklarda daxili audit xidməti riskin qiymətləndirilməsində, uyğunluğun təmin edilməsində, əməliyyat səmərəliliyinin artırılmasında və təşkilatın aktivlərinin qorunmasında mühüm əhəmiyyət daşıyır. Bu əsnada, daxili audit fəaliyyəti müstəqillik, risk əsaslı yanaşma və peşəkarlıq prinsiplərinə riayət etməklə, bank institutlarının ümumi uğuruna və sabitliyinə öz töhfəsini verir. "Daxili audit funksiyası risklərin idarə edilməsi sisteminin üçüncü müdafiə xəttidir. O, bankın və

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail*: m.qurbanov@bk.ru

onun nüfuzunun qorunması üçün bankın Müşahidə Şurasına və İdarə Heyətinə bankın daxili nəzarət və risklərin idarə edilməsi sisteminin keyfiyyəti və effektivliyi ilə bağlı müstəqil dəstək xidmətini təmin edir" [3, s. 4].

Daxili Auditorlar İnstitutuna əsasən: Daxili audit müstəqil, obyektiv təminatdır, dəyərləndirmə və təşkilatın fəaliyyətini təkmilləşdirmək üçün istifadə olunan konsaltinq fəaliyyətidir [10, s.1]. Banklarda daxili audit xidməti bir sıra xüsusiyyətləri kompleks şəkildə özündə əks etdirir:

*1.1. Müstəqil qiymətləndirmə daxili auditin mahiyyətini xarakterizə edən əsas elementlərdən biridir.*

Daxili auditorlar yoxladıqları fəaliyyətlərdən asılı deyil və tam müstəqilliyini qoruyurlar. Belə ki, daxili auditor bankın əməliyyatlarını, proseslərini, nəzarət mexanizmlərini və maliyyə hesabatlarını qiymətləndirərkən hər hansı qeyri-qanuni təsirdən azad olmalıdır. Habelə "auditor müstəqil şəkildə maliyyə hesabatlarını və digər məlumatları yoxlamalı və maliyyə məlumatlarını təqdim edən vəzifəli şəxslərə, həmçinin bu məlumatların istifadəçilərinə münasibətdə bitərəf qalmalı, qərəzsiz mövqe nümayiş etdirməlidir" [7, s. 13]. Bu müstəqillik auditorun qiymətləndirmələrinin qərəzsiz və obyektiv olmasını təmin edir, onlara bankın əməliyyatları və nəzarəti ilə bağlı qərəzsiz qiymət verməyə imkan verir. Bu xüsusiyyət audit prosesinin və onun emal etdiyi məlumatın tamlığını və etibarlılığını təmin etmək üçün çox vacibdir;

*1.2. Daxili auditin risklərin idarə edilməsi funksiyası, banklara əməliyyat, maliyyə və komplayns riskləri də daxil olmaqla üzləşdikləri müxtəlif riskləri müəyyən etməyə, qiymətləndirməyə və idarə etməyə kömək edir.*

Potensial riskləri vurğulamaqla daxili auditorlar mənfi hadisələrin baş vermə ehtimalını və onların banka təsirini minimuma endirməyə çalışırlar. Bu vacib funksiya bankın İdarə Heyətinə və Müşahidə Şurasına bankın məqsədlərinə nail olunmasına təsir göstərə biləcək riskləri anlamağa və həll etməyə xidmət edir. Daxili auditorlar bankın əməliyyatlarına, maliyyə göstəricilərinə, nüfuzuna və qaydalara uyğunluğuna potensial təsir göstərə biləcək həm daxili, həm də xarici risklərin müəyyən edilməsinə cavabdehdirlər. Bu risklərə likvidlik, kredit, əməliyyat, bazar riskləri, habelə hüquqi və tənzimləmə riski və s. aiddir. Risklər müəyyən edildikdən sonra daxili auditorlar bu risklərin potensial təsirini və baş vermə ehtimalını qiymətləndirirlər. Bu qiymətləndirmə, riskləri onların əhəmiyyətinə əsasən prioritetləşdirməyə kömək edir və banka risklərin azaldılması (mitiqasiyası) üçün resursları səmərəli şəkildə ayırmağa imkan verir. Beynəlxalq Audit Standartlarında "Risklərin qiymətləndirilməsi və qiymətləndirilmiş risklərin cavablandırılması" standartı əksini tapmışdır. Sözügedən standartın tələblərinə uyğun olaraq "auditor maliyyə hesabatı və təsdiqləmələr səviyyəsində əhəmiyyətli təhriflər riskinin müəyyən edilməsi və qiymətləndirilməsi üçün zəmin hazırlamaq məqsədilə riskin qiymətləndirilməsi prosedurlarını yerinə yetirir" [ 6, s. 371];

*1.3. Daxili auditin mahiyyətini əks etdirən əsas komponentlərdən biri daxili nəzarətin qiymətləndirilməsidir.*

Daxili audit bankın prosesləri daxilində daxili nəzarətin adekvatlığını və effektivliyini qiymətləndirir. "Daxili nəzarət idarəetməyə məsul şəxslər tərəfindən həyata keçirilən və maliyyə hesabatlarının etibarlılığına, əməliyyatların səmərəliliyinə, onların qüvvədə olan qanunlara uyğunluğuna əsaslı əminliyi təmin etmək üçün nəzərdə tutulmuş bir prosesdir" [8, s. 268]. Güclü daxili nəzarət bankın aktivlərinin mühafizəsini, əməliyyatların dəqiq uçotunu və komplayns tələblərinin yerinə yetirilməsini təmin edir. Auditorlar nəzərdə tutulmuş nəzarət vasitələrinin effektiv şəkildə tətbiq edilib-edilmədiyini və təcrübədə riayət edilib-edilmədiyini qiymətləndirirlər. Buraya işçilərin müəyyən edilmiş prosedurlara riayət edib-etmədiyini və nəzarət tədbirlərinin ardıcıl şəkildə tətbiq edilib-edilmədiyini, risklərin həqiqətən azaldıb-azaltmadığını yoxlamaq daxildir. Auditorlar nəzarət vasitələrinin funksionallığını yoxlamaq üçün sınaq prosedurlarını yerinə yetirirlər;

*1.4. Daxili auditin əsas xüsusiyyətlərindən biri bankın fəaliyyət və əməliyyatlarının optimallaşdırılmasıdır.*

Daxili auditorlar məhdud sahələri, təkrarlanmaları və səmərəsizliyi müəyyən etmək üçün bankın əməliyyat proseslərini qiymətləndirirlər. Onlar təkmilləşdirmənin mümkün olduğu sahələri müəyyən etmək üçün fəaliyyətlərin axışını təhlil edirlər. Əməliyyatların təkmilləşdirilməsinin məqsədi prosesləri sadələşdirmək və onları daha səmərəli etməkdir. Daxili auditorlar vaxtın və resursların boşa getdiyi sahələri müəyyənləşdirir və resursların bölüşdürülməsini optimallaşdırmaq üçün tövsiyələr verir. Səmərəlilikləri müəyyən etməklə daxili auditorlar banka səmərəsiz proseslərlə bağlı lazımsız xərcləri azaltmağa kömək edir. Bu, bankın mənfəətinə müsbət təsir göstərən xərclərə qənaət edilməsinə gətirib çıxarır.

*1.5. Daxili audit komplayns xüsusiyyətindən irəli gələrək bankın müvafiq qanunlara, qaydalara və daxili siyasətlərə əməl etməsini təmin edir.*

Bu, bankın reputasiyasını qorumaq, hüquqi problemlərdən qaçmaq və etik davranış mədəniyyətini inkişaf etdirmək çox vacibdir. Daxili auditin bu komponenti bankın əməliyyat və fəaliyyətinin hüquqi və normativ tələblərə uyğunluğunun yoxlanılmasını və bununla da hüquqi risklərin azaldılmasını və bankın nüfuzunun qorunub saxlanmasını nəzərdə tutur.

Daxili auditorlar bank sektorunu tənzimləyən qaydalara və qanunlara uyğunluğunu yoxlamaq üçün bankın əməliyyatlarını qiymətləndirirlər. Auditorlar bankın daxili siyasət və prosedurlarını onların tənzimləyici tələblərə uyğun olmasını təmin etmək üçün nəzərdən keçirirlər. Onlar bu siyasətlərin işçilər tərəfindən effektiv şəkildə kommunikasiya olunduğunu, başa düşüldüyünü və onlara əməl edilib-edilmədiyini qiymətləndirirlər. Daxili auditorlar uyğunsuzluğun hüquqi və ya reputasiya risklərinə səbəb ola biləcəyi sahələri müəyyən edir və bu riskləri azaltmaq üçün nəzarət tədbirlərini tövsiyə edir. Uyğunluq güclü daxili nəzarətlə gücləndirilir.

## 2. Banklarda daxili auditin əsas fəaliyyət istiqamətləri və vəzifələri

Banklarda auditor fəaliyyətinin tənzimlənməsi auditə dair ölkəmizin müvafiq qanunlarında, o cümlədən “Auditor xidməti haqqında”, “Banklar haqqında”, “Azərbaycan Respublikası Mərkəzi Bankı haqqında”, “Daxili audit haqqında” Azərbaycan Respublikası qanunlarında, habelə Azərbaycan Respublikasının Mərkəzi Bankının müvafiq normativ xarakterli aktlarında öz əksini tapmışdır.

“Daxili audit haqqında” Azərbaycan Respublikasının Qanununda “daxili audit” anlayışı təsbit edilmişdir. Qanuna əsasən, daxili audit fəaliyyəti təsərrüfat subyektində risklərin idarə edilməsi, nəzarət mexanizmlərinin və korporativ idarəetmənin effektivliyinin qiymətləndirilməsi və inkişafına sistemli yanaşma tətbiq etməklə təşkilatın fəaliyyətinin inkişafı tempinin və səmərəliliyinin artırılmasına xidmət edir, habelə təşkilatın fəaliyyətində obyektiv mövqedən çıxış edərək təminatverici və məsləhətverici funksiyanı icra edir” [4, s. 1]. Bir sözlə, daxili audit fəaliyyəti risklərin idarə edilməsinin, nəzarət mexanizmlərinin tətbiqinin və idarəetmə proseslərinin effektivliyinin və səmərəliliyinin qiymətləndirilməsi, habelə yüksəldilməsi istiqamətində bankın öz məqsədlərinə çatmasında vacib əhəmiyyətli rol oynayır.

Daxili audit tənzimləyici orqanı maraqlandıran məsələlərlə bağlı müvafiq imkanlara malik olmalı və risklərin hərtərəfli qiymətləndirilməsinin nəticələrinə əsasən belə sahələrin müntəzəm təhlilini aparmalıdır. Buraya müvafiq nəzarət orqanları tərəfindən müəyyən edilmiş müxtəlif tənzimləyici prinsiplər, qaydalar və təlimatlar, siyasətlər, proseslər və nəzarət mexanizmləri daxildir. Xüsusilə, bankın daxili audit xidməti risklərin idarə edilməsi funksiyalarını, tənzimləyici kapitala və likvidliyə nəzarət funksiyalarını, tənzimləyici və daxili istifadə üçün hesabatlıq funksiyalarını, normativlərə uyğunluq funksiyalarını və maliyyə funksiyalarını nəzərdən keçirə bilməlidir [9, s. 8].

*a). Risklərin idarə edilməsi üzrə:*

Daxili audit xidməti risklərin idarə edilməsinin aşağıdakı aspektlərinin yoxlanmasını təmin etməlidir:

– bazar, kredit, likvidlik, faiz dərəcəsi, əməliyyat və hüquqi risklər daxil olmaqla risklərin idarə edilməsi funksiyasının təşkili və səlahiyyətlərinin yoxlanması;

–risk iştahasının qiymətləndirilməsi, risklərin idarə edilməsi funksiyası tərəfindən qəbul edilən məsələlər və qərarların eskalasiyası və hesabatının yoxlanması;
–bankın fəaliyyəti nəticəsində yaranan bütün risklərin müəyyən edilməsi, ölçülməsi, qiymətləndirilməsi, nəzarət edilməsi, cavablandırılması və hesabatların verilməsi üçün risklərin idarə edilməsi sistemlərinin və proseslərinin adekvatlığının yoxlanması;
–istifadə olunan məlumatların dəqiqliyi, etibarlılığı və tamlığı daxil olmaqla, risklərin idarə edilməsi üzrə informasiya sistemlərinin bütövlüyünün yoxlanması; və
–risk modellərinin təsdiqi və saxlanması, o cümlədən bu cür modellərdə istifadə olunan məlumat mənbələrinin ardıcıllığının, vaxtlılığının, müstəqilliyinin və etibarlılığının yoxlanılması.

*b). Kapitalın adekvatlığı və likvidlik üzrə:*

Banklar Bazel Komitəsi tərəfindən təsdiq edilən və milli tənzimləmədə tətbiq edilən kapital və likvidlik üçün qlobal tənzimləyici çərçivəyə tabedirlər. Bu çərçivə tənzimləyici kapitalın və qlobal likvidliyin gücləndirilməsi üçün tədbirləri ehtiva edir. Daxili auditin əhatə dairəsinə bu normativ bazanın bütün müddəaları, xüsusən də bankın tənzimləyici kapitalının müəyyən edilməsi və ölçülməsi, bankın risklərə məruz qalmaları və müəyyən edilmiş minimum əmsallarla əlaqədar kapital resurslarının adekvatlığının qiymətləndirilməsi sistemi daxil edilməlidir.

*c). Tənzimləyici və daxili məqsədlər üçün hesabatlılıq:*

Daxili auditorlar həm daxili idarəetmə, həm də nəzarətçi üçün vaxtında, dəqiq, etibarlı və müvafiq hesabatların hazırlanması məqsədilə risk və hesabat funksiyalarının qarşılıqlı əlaqədə olduğu prosesin effektivliyini mütəmadi olaraq qiymətləndirməlidirlər. Buraya bankın öz kapital resurslarının, tələblərinin və əmsallarının hesablanmasını əks etdirən standartlaşdırılmış hesabatlar daxildir.

*d). Uyğunluq (komplayns xidməti) üzrə:*

Uyğunluq funksiyasının fəaliyyət dairəsi daxili audit funksiyası tərəfindən vaxtaşırı nəzərdən keçirilməlidir. Uyğunluqla bağlı qanunlara, qaydalara və standartlara qanunvericilik aktları, qanunverici və nəzarətedici orqanlar tərəfindən verilən qaydalar və standartlar, bazar konvensiyaları, sənaye assosiasiyaları tərəfindən təşviq edilən təcrübə məcəllələri və bankın əməkdaşlarına tətbiq edilən daxili davranış kodeksi daxildir. Uyğunluq funksiyasının auditi komplayns xidmətinin öz öhdəliklərini nə dərəcədə effektiv yerinə yetirməsinin qiymətləndirilməsini əhatə etməlidir.

*e). Maliyyə üzrə:*

Bankın maliyyə funksiyası maliyyə məlumatlarının və hesabatların tamlığına və düzgünlüyünə cavabdehdir. Maliyyə fəaliyyətinin əsas aspektləri (məsələn, hesablamalar, mənfəət və zərər qiymətləndirmələri və ehtiyatlar) bankın kapital resurslarının səviyyəsinə təsir göstərir və buna görə də əlaqəli nəzarət mexanizmləri oxşar risklər və bizneslər arasında möhkəm və ardıcıl şəkildə tətbiq edilməlidir. Beləliklə, bu nəzarət vasitələrinin bank təcrübələrinin effektiv qiymətləndirilməsini təmin etmək üçün resurslardan və təcrübədən istifadə etməklə, dövri daxili audit yoxlamasına məruz qalması vacibdir.

Bank nəzarəti üzrə Bazel Komitəsinin sənədlərində bank nəzarəti orqanlarına qarşılıqlı maraq doğuran məsələlər üzrə bankların daxili audit xidmətləri ilə sıx əlaqə saxlamaq tövsiyə edilir. Eyni zamanda, bank nəzarəti orqanı belə əlaqəni qurarkən bankın daxili audit xidmətinin fəaliyyətinin təşkilini, o cümlədən onun statusunu və səlahiyyətlərini diqqətlə araşdırmalıdır. Bank nəzarəti orqanı ilə bankın daxili audit xidməti arasında qarşılıqlı fəaliyyət çərçivəsində hər iki tərəf bu qarşılıqlı əlaqənin onların müstəqilliyinə və statusuna mənfi təsir göstərmə ehtimalını istisna etməlidir, çünki tərəflərin vəzifə və məsuliyyətləri əhəmiyyətli dərəcədə fərqlənir.

Daxili audit fəaliyyətinin qarşısında duran vəzifələr, daxili audit xidmətinə cavabdeh olan struktur bölmədən bankın aşağıda qeyd olunan sahələr üzrə fəaliyyətlərinin yoxlanlması, qiymətləndirilməsi və müvafiq hesabatların təqdim edilməsini tələb edir:

• Azərbaycan Respublikasının qüvvədə olan qanunvericilik aktları və Azərbaycan Respublikası Mərkəzi Bankının normativ tələblərinə riayət edilməsi;

• Risklərin idarə edilməsinin səmərəliliyi;

- Bankdaxili nəzarət mexanizmlərinin effektivliyi;
- Rəqəmsal bank əməliyyat və proqram təminatı sistemlərinin, o cümlədən biznes proseslərin hazırlanmasında və tətbiq olunmasında keyfiyyət proseduralarının tətbiqi;
- Bankın aktivlərinin təhlükəsizliyi ilə əlaqədar nəzarət mexanizmlərinin, sistem və prosedurların tətbiqi;
- Ucot məlumatlarının adekvatlığının, düzgünlüyünün və tamlığının təmin edilməsi üçün sistem və proseduraların tətbiqi.

Daxili audit xidməti üçün məsul olan struktur bölmə bankın reqlamentində (daxili qaydalarda, proseduralarda və əsasnamələrdə) dəyişikliklərin edilməsi üzrə tövsiyələr də verə bilər.

Daxili audit xidmətinin əsas funksiyaları aşağıdakılardan ibarətdir:

➢ bankın müxtəlif əməkdaşları və struktur bölmələrinin icra etdiyi əməliyyatların qanunvericiliyə, normativ xarakterli aktlara və daxili sənədlərə uyğunluğunun mütəmadi olaraq yoxlanılmasının təmin edilməsi;

➢ bankın əməkdaşlarının qanunvericiliyin, normativ aktların, təlimatların, bankdaxili sənədlərin tələblərinin, peşə etikasının standartlarını pozması faktlarının araşdırılması və uyğunsuzluqların, yaxud saxtakarlıqların aşkara çıxarılması;

➢ aşkar edilmiş nöqsanların aradan qaldırılması və buna nəzarətin həyata keçirilməsi məqsədilə tövsiyələrin irəli sürülməsi;

➢ aparılmış bütün yoxlamaların nəticələrinin və aşkar edilmiş faktların müvafiq formada sənədləşdirilməsinin təmin edilməsi;

➢ aparılmış bütün yoxlamaların nəticələrinin, müəyyən edilmiş əhəmiyyətli risklərin, nöqsanların və çatısmazlıqların, habelə onların aradan qaldırılmasının yolları ilə bağlı gecikdirilmədən bankın rəhbər heyətinə müvafiq məlumatların verilməsi;

➢ bank əməkdaşlarının qanunvericiliyin, normativ xarakterli aktların, bankdaxili normativ sənədlərin müddəalarının öyrənilməsi işinin təşkilinə nəzarətin edilməsi;

➢ mühasibat uçotu və hesabatlıq sisteminin adekvatlığının qiymətləndirilməsi;

➢ idarəetmə-daxili nəzarət mexanizmlərinin və qaydalarının tətbiqinin, habelə əməliyyatların səmərəliyinin qiymətləndirilməsi;

➢ tətbiq edilən yeni prudensial çərçivə ilə əlaqədar olaraq, yeni siyasətin formalaşdırılması və ya əvvəlki siyasətə yenidən baxılması, yaxud yeni fəaliyyət növlərinin planlaşdırılması prosesində və tətbiqinin müxtəlif mərhələlərində effektiv nəzarət mexanizmlərinin mövcudluğunun təmin edilməsi.

**Nəticə**

Ümumiyyətlə, audit xidmətinin təşkilatın bütün fəaliyyət istiqamətlərinə əhəmiyyətli təsiri olduğu üçün onun idarəetmə funksiyası formalaşır. Belə ki, auditin idarəetmədə iştirak funksiyasının əsas cəhəti onun davamlı olaraq idarəetmənin bütün proseslərində aktiv təsir imkanlarına malik olması ilə bağlıdır. Belə ki, audit icmal qaydada təsərrüfat və maliyyə fəaliyyətlərinin ekspertizasını etməklə yanaşı, müxtəlif tematik məqsədlər üzrə idarəetmənin bütün mərhələlərində fəaliyyət göstərir [1, s. 15]. Audit xidmətinin səlahiyyətinin genişliyi onun cavabdehliyini də artırır. Bu baxımdan, audit xidmətinin əməkdaşları öz vəzifələrini vicdanla icra etmək, habelə beynəlxalq audit standartlarının tələblərinə və etik standartların prinsiplərinə riayət etməklə bağlı məsuliyyət daşıyırlar.

Daxili audit xidmətinin əməkdaşlarının banklarda yoxlama aparmaq məqsədilə uçot-hesabatlıq, mühasibatlıq, pul-hesabatlıq və digər sənədlərə giriş imkanı olmalıdır. Belə ki, onlar bankın əməkdaşlarının hərəkətlərinin və icra etdiyi əməliyyatların qanunvericiliyin, normativ xarakterli aktlarının və digər bankdaxili sənədlərin tələblərinə uyğun olub-olmamasını müəyyən edir. Daxili audit bankın bütün struktur bölmələrinin fəaliyyətinin yoxlanması, habelə ayrı-ayrı əməliyyatların müvəqqəti dayandırılması barədə tövsiyələrin verilməsi, zəruri hallarda daxili auditə aid olan bir sıra digər məsələlərin həlli üçün bankın digər struktur böl-mələrinin əməkdaşlarının

cəlb edilməsi daxili audit xidməti işçilərinin birbaşa səlahiyyətidir.

Qeyd olunanlarla yanaşı, bank əməkdaşlarının daxili auditin işçiləri ilə münasibətdə müəyyən vəzifə və məsuliyyətləri vardır. Belə ki, bank əməkdaşları qanunvericiliyin pozulması, həmçinin banka hər hansı zərərin vurulması halları ilə qarşılaşdıqda, bu barədə daxili audit xidmətinin əməkdaşlarına məlumat verməli, iş prosesində icra edilən əməliyyatların mövcud normativ aktların, daxili normativ sənədlərin və təşkilatın etik standartların tələblərinə uyğunluğu ilə şübhəli məqamlar olduqda, daxili audit xidmətinin əməkdaşları ilə fikir mübadiləsi aparmalıdırlar.

## ƏDƏBİYYAT


1. Abbasov İ.M. Audit (dərslik). Bakı: Bakı Biznes Universitetinin nəşriyyatı, 2007, 530 s.
2. “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu. №882, 16.09.1994. (https://e-qanun.az/framework/9236)
3. Azərbaycan Respublikasının Mərkəzi Bankı. “Banklarda korporativ idarəetmə Standartları”. №41/1, 28.08.2023.
4. “Daxili audit haqqında” Azərbaycan Respublikasının Qanunu//.№332- IIIQ, 22.05.2007. (https://e-qanun.az/framework/13241)
5. Kazımov R.N., Namazova C.B. Praktiki audit (dərslik). Bakı, Azərbaycan Dövlət İqtisad Universitetinin nəşriyyatı, 2011, 243 s.
6. Keyfiyyətə nəzarət, audit, təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə Beynəlxalq Standartlar Toplusu. Bakı, 2019, s. 1415
7. Гутцайт Е.М. Актуальные проблемы аудита: базовая концепция, методология решения. Москва, 2004, 343 с.
8. Кизилов А. Н., Овчаренко О.В. Развитие внутреннего аудита в системе управления коммерческой организацией, Вестник Ростовского государственного экономического университета// № 3 (29), 2009, с. 265-272.
9. Basel Committee on Banking Supervision. The internal audit function in banks. 2012, s. 29., (www.bis.org)
10. https://www.macpas.com/the-purpose-of-internal-audit/



***Резюме***

***Мушфиг Гурбанов***

***Сущность и особенности службы внутреннего аудита применяемой в банках***

Владельцы и все акционеры банка заинтересованы в получении высоких прибылей взамен вложенного и затраченного в банк капитала, в результате чего дивиденды постоянно увеличиваются. С этой точки зрения очень важно осуществлять ежедневный контроль, чтобы обеспечить правильность расходования средств, выдачи долгов другим предприятиям и организациям, точность и правильность ведения бухгалтерского учета. Для эффективной и результативной организации надзора необходима деятельность надзорной службы, которая знает свою профессию, организационно-управленческую структуру банка, глубоко знакома с методикой проверок, имеет подробной информацией о действующих соответствующих законодательных актах и нормативной базе.

Для развития эффективной системы внутреннего контроля широко используются стандарты и требования, вытекающие как из отечественного, так и из международного опыта. Формирование систем внутреннего банковского контроля как успешной системы является важным условием стабильной и надежной работы самого банка и обеспечения стабильности финансовой системы органа банковского контроля в целом.

Внутренний аудит, согласно прогрессивным международным подходам, является важной и обязательной частью постоянного мониторинга деятельности банка. Данная услуга оценивает эффективность правил и методов контроля, определенных законодательством и внутренними нормативными документами банка, а также их выполнение. Крайне важно, чтобы служба внутреннего аудита не зависела от повседневной работы банка и имела доступ ко всем видам операций. Внутренние аудиторы предоставляют наблюдательному совету и правлению банка объективную и непредвзятую информацию о деятельности банка, сохраняя при этом свою независимость.

В целом система внутреннего аудита широко используется в развитых странах рыночной экономики – странах, которые признают частную собственность важной формой собственности. Служба внутреннего

аудита вносит существенный вклад в повышение эффективности управления путем определения цели, полноты и ликвидности, рациональности и своевременности использования финансовых ресурсов банка, выявления источников резервов при формировании и расходовании финансовых ресурсов, выявления отклонений от эффективности и законодательства в финансово-хозяйственных операциях.

**Ключевые слова:** *Аудит, банк, внутренний аудит, финансы, отчетность*

***Summary***

***Mushfiq Gurbanov***

***The Nature and Characteristics of the İnternal Audit Service Applied in Banks***

The owners and all shareholders of the bank are interested in obtaining high profits in return for the capital invested and expended in the bank, and as a result, the dividends are constantly increasing. From this point of view, it is very important to carry out daily control in order to ensure the correct spending of funds, the granting of debts to other enterprises and organizations, and the accuracy and accuracy of accounting. For the effective and efficient organization of the control, it is necessary to operate a control service that knows its profession, the organizational-management structure of the bank, is deeply familiar with the control techniques, and has detailed information about the existing relevant legislative acts and the normative regulatory framework.

In order to develop an effective internal control system, standards and requirements arising from both domestic and international experience are widely used. The formation of internal bank control systems as a successful system is an important condition for the stable and reliable operation of the bank itself and for ensuring the stability of the financial system of the bank control body as a whole.

Internal audit, according to progressive international approaches, is an important and indispensable part of constant monitoring of the bank's activity. This service evaluates the effectiveness of the control rules and methods determined by the legislation and internal normative documents of the bank, as well as their implementation. It is imperative that the internal audit service does not depend on the daily work of the bank and has access to all types of transactions. Internal auditors provide objective and unbiased information about the bank's activities to the bank's supervisory board and management board while maintaining their independence. The cycle of internal audits performed by them and the areas they cover are related to the complexity and risks of the bank's commercial activity.

In general, the internal audit system is widely used in developed market economy countries- countries that accept private property as an important form of ownership. The internal audit service makes a significant contribution to increasing the effectiveness of management by determining the purpose, completeness and liquidity, rationality and timeliness of the use of the bank's financial resources, identifying sources of reserves in the formation and spending of financial resources, detecting deviations from efficiency and legislation in financial and economic operations.

**Keywords:** *audit, bank, internal audit, finance, reporting*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Həsənli Yadulla Həmdulla oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.